Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

Mingəçevir Turizm Kolleci

Publik Hüquqi Şəxsi

# AKADEMİK HEYƏTİN AÇIQ DƏRSLƏRİNİN TƏŞKİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TƏLİMAT

Tədrisdə Keyfiyyət Təminatı

Mingəçevir - 2023

# Mündəricat


1. Ümumi müddəalar ______ (Səh) 2
2. Açıq dərslərin planlaşdırılması ______ (Səh) 2
3. Açıq dərsin təşkili ______ (Səh) 3
4. Açıq dərslərin qiymətləndirilməsi ______ (Səh) 3
5. Qiymətləndirmənin nəticələrindən istifadə ______ (Səh) 3

*Təsdiq edirəm:*
***Mingəçevir Turizm Kollecinin***
***direktoru _______________ Kamal Əhmədov***
***14 sentyabr 2023-cü il***

## AKADEMİK HEYƏTİN AÇIQ DƏRSLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TƏLİMAT

### 1. Ümumi müddəalar

**1.1.** "Açıq dərslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair Qaydalar" Azərbaycan Respublikasının Təhsil haqqında Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır;

**1.2.** Qaydaların əsas məqsədi açıq dərslərin planlaşdırılması, təşkili, qiymətlən dirilməsi və nəticələrin müzakirə edilməsi prosedurlarını müəyyən etməkdən ibarətdir;

**1.3**. Açıq dərslərin əsas məqsədi Kollecin akademik heyətinə müasir tədris metodları və alətlərinin tətbiqi ilə bağlı metodiki yardımın göstərilməsindən, eləcə də akademik heyət arasında təcrübə mübadiləsinin aparılmasından ibarətdir;

**1.4.** Açıq dərslər bilavasitə tədris prosesi çərçivəsində təşkil olunur.

### 2. Açıq dərslərin planlaşdırılması

**2.1.** Açıq dərslər əvvəlcədən Tədris şöbəsi ilə razılaşdırılmış qrafikə uyğun olaraq planlaşdırılır;

**2.2.** Fənn birliklərinin müəllim heyəti hər tədris ilində bir dəfədən az olmayaraq açıq dərs təşkil etməlidir;

**2.3.** Tədris şöbəsi ilə razılaşdırılmış qaydada hər bir kurs üzrə açıq dərslərin qrafikini hazırlayır və bu qrafiki Fənn birliyi sədrinə və Keyfiyyət Təminatı şöbəsinə təqdim edir;

**2.4.** Açıq dərsin qrafikində kursun və ya təlimin adı, dərsin mövzusu, təlimçi, keçirilmə yeri və tarixi, açıq dərsdə iştirak edəcək qiymətləndiricilərin və əlavə iştirakçıların siyahısı əks etdirilir. Açıq dərslərin qrafiki Kollecin direktor müavini tərəfindən təsdiq edilir və açıq dərsləri təşkil edəcək təlimçilərə açıq dərsin planlaşdırıldığı gündən azı 5 gün əvvəl məlumat verilir.

### 3. Açıq dərsin təşkili

**3.1.** Açıq dərsi təşkil edəcək müəllim dərsin planını, tədris olunacaq mövzu üzrə materiallarını, mövzu üzrə bilik qiymətləndirmə mexanizmi haqqında məlumatları qiymətləndiricilərə təqdim edir;

**3.2.** Açıq dərslərin keçirilməsi nəzərdə tutulan auditoriya əvvəlcədən hazırlıq vəziyyətinə gətirilir. Auditoriyada planlama elə aparılmalıdır ki, dərsin təbii nizamı pozulmasın.

## 4. Açıq dərslərin qiymətləndirilməsi

**4.1.** Açıq dərslər zamanı fənni tədris edən müəllimin qiymətləndirilməsi bir sıra meyarlar üzrə aparıla bilər: auditoriyanın idarə edilməsi, dərsin planlaşdırılması, tədris metodikasının mövzu ilə uyğunluğu, dərs prosesində əyani vasitələrdən istifadə etmək bacarığı və s.;

**4.2.** Açıq dərsin qiymətləndirilməsi prosesində Direktor, Direktor müavini, Tədris şöbəsinin müdiri, Fənn birliyi sədri, Keyfiyyətin Təminatı şöbəsi, təcrübəli pedaqoji heyət üzvləri iştirak edə bilər;

**4.3.** Qiymətləndirilmə prosesi 10 ballıq meyar nəticələri ilə 5 ballıq meyar nəticələri toplanılaraq 2-yə bölünür; alınan nəticə ümumiləşdirilərək 100 bal üzrə dəyərləndirilir.

10 -yüksək, 7- yaxşı, 4-kafi, 2-qeyri-kafi, 5-müşahidə olunur, 3- qismən müşahidə olunur, 0- müşahidə olunmur. Əldə edilən nəticə meyar üzrə göstəricinin yüksək (91-100), yaxşı (71-90), kafi (51-70), qeyri-kafi (50 və daha az) kimi qiymətləndirilməsinə əsas verir.

## 5. Qiymətləndirmənin nəticələrindən istifadə

**5.1** Tədris şöbəsinin müdiri, tədris işləri üzrə direktor müavini və fənn birliyi sədri hər bir açıq dərsin yekun qiymətləndirilməsini müzakirə edir və müəllimə müvafiq metodiki məsləhət verir;

**5.2** Açıq dərslərin nəticələri Fənn birliyi iclasında və Pedaqoji Şurasında müzakirə edilir. Açıq dərsdə əldə edilən yüksək nəticələr təlimçilərin müvafiq qaydada maddi və mənəvi qiymətləndirilməsi üçün əsasdır.

| | | | |
|---|---|---|---|
| ***Şəhər/rayon Kollec*** | | **Tarix** | |
| ***FBK*** | | **Qrup №** | |
| ***Fənn*** | | **Dərsin mövzusu** | |
| ***Qrupdakı tələbə sayı*** | | **Dərsdə iştirak edən tələbə sayı** | |
| ***Müəllimin adı və soyadı*** | | **Müşahidəçinin adı və soyadı** | |

| Sıra Nəsi | Meyarlar | Müşahidə olunur | Qismən müşahidə olunur | Müşahidə olunmur |
|---|---|---|---|---|
| | ***1. Planlaşdırma*** | **5** | **3** | **0** |
| 1.1. | Perspektiv planlaşdırmaya uyğun gündəlik planlaşdırması var | | | |
| 1.2. | Cari planlaşdırma tələblərə uyğun tərtib olunmuşdur. (Tələblər: təlim nəticələrinin (məqsədin), qiymətləndirmə meyarlarının və öyrənmə fəaliyyətinin düzgün müəyyənləşdirilməsi) | | | |
| ***2. Dərsin təşkili və gedişi*** | | | | |
| 2.1. | Dərsin məqsədi təlim nəticələrinə uyğundur. | | | |
| 2.2. | Dərsin əvvəlində tələbələri fəaliyyətə stimullaşdırır (səmimi ünsiyyətə, işgüzar fəaliyyətə cəlb edən əhval-ruhiyyə yaratmaq və s.) | | | |
| 2.3. | Müəllim dərsin məqsədinə uyğun sual və tapşırıqlar verir | | | |
| 2.4. | Dərsdə"müəllim-tələbə","tələbə-tələbə"münasibətləri qarşılıqlı şəraitdə qurulub | | | |
| 2.5. | İnteraktiv ( fəal) təlimin iş formalarını düzgün istifadə edir və seçilmiş iş forması dərsin məqsədinə uyğundur | | | |
| 2.6. | Müəllim dərsin mövzusunu real həyatla və digər fənlərlə əlaqələndirir (inteqrasiya) | | | |
| 2.7. | Müəllim qərarlarını dərsin məqsədinə uyğun müxtəlif üsul və texnikalardan istifadə etməklə düzgün istiqamətləndirir | | | |
| ***3. Müəllimin dərsdəki fəaliyyəti*** | | | | |
| 3.1. | Müəllim dərsə psixoloji hazırdır (əhvalı, enerjisi, qətiyyətliliyi, həyacanlılığı və s.) | | | |
| 3.2 | Tələbələrin fərdi psixoloji xüsusiyyətlərini nəzərə alır | | | |
| 3.3. | Tələbələrlə ünsiyyət qurur və auditoriyanın təşkili və idarə olunmasını təmin edir | | | |
| 3.4. | Müəllim prosesi sistemli, ardıcıl təşkil edir (tələbələrin əvvəlki biliklərini müəyyənləşdirir, prosesləri əlaqələndirir və s.) | | | |
| 3.5. | Müəllim tələbələri müstəqil öyrənməyə yönəldir | | | |
| ***4. Tələbələrin dərsdə fəaliyyəti*** | | | | |
| 4.1. | Tələbələr dərsdə fəaldırlar (verilən sualların cavablandırılmasında, qoyulan problemlərin həllində) | | | |
| 4.2. | Tələbələr mövzu üzrə şəxsi müşahidələrindən nümunələr gətirir, yaradıcı təklif və ideyalarla çıxış edirlər | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4.3. | Tələbələr dərsdə yoldaşlarının fikirlərinə münasibət bildirir, qarşılıqlı əməkdaşlıq şəklində fəaliyyət göstərirlər | | | |
| ***5. Dərsdə resurslardan istifadə*** | | | | |
| 5.1. | Müəllim dərsdə əlavə resurslardan (internet, mövzu üzrə əyani vəsaitlər, xəritələr,cihazlar, şəkillər, müxtəlif ədəbiyyatlar və s) istifadə edir | | | |
| ***6. Qiymətləndirmə*** | | | | |
| 6.1. | Dərsin qiymətləndirmə meyarları məqsədəuyğun müəyyənləşdirilmişdir | | | |
| 6.2. | Vaxtın idarə olunması və ya ev tapşının verilməsi | | | |

**Açıq məşğələnin qiymətləndirilməsi**

| s\s | Meyarlar | Qiymətləndirmə | | | |
|---|---|---|---|---|---|
| | | 2 | 5 | 8 | 10 |
| 1 | Dərsin planlaşdırılması (dərsin hissələrə bölünməsi və vaxtın bu hissələr üzrə düzgün bölüşdürülməsi) | | | | |
| 2 | Dərsin məqsədlərini və tələbələrin əldə etməsi zəruri olan təlim nəticələrini aydın izah edir | | | | |
| 3 | Tədris etdiyi sahə üzrə ətraflı məlumata sahibdir və ən yeni informasiyanı tələbələrə çatdıra bilir | | | | |
| 4 | Dərs zamanı mövzunun əhatə olunması səviyyəsi | | | | |
| 5 | Dinləyicilərin müstəqil öyrənməyə motivə edilməsi | | | | |
| 6 | Cari dərsi öncəki və ya sonrakı dərslərlə əlaqələndirir | | | | |
| 7 | Drsin xülasə hissəsini təqdim və izah edir | | | | |
| 8 | Tələbələri sual verməyə və müzakirələrdə fəal iştirak etməyə həvəsləndirir. | | | | |
| 9 | Dərsin sonunda əsas məqamları yenidən qeyd edir | | | | |
| 10 | Qiymətləndirmə və ya ev tapşırığı | | | | |
| | Yekun | | | | |

| Müəyyən edilmiş bal həddi | Qiymət | Peşə hazırlığı səviyyəsi barədə rəy (tövsiyə) |
|---|---|---|
| **91-100** | yüksək | Tələblərə tam cavab verir. Təcrübənin yayılması tövsiyə olunur. |
| **71-90** | yaxşı | Dərs kifayət qədər yaxşı səviyyədə keçirilmişdir. Çatışmazlıqlar azdır, ciddi əhəmiyyət kəsb etmir, aradan qaldırılması asandır |
| **51-70** | kafi | Dərs müəyyən edilmiş tələblərə qismən cavab verir. Mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün təlim qabiliyyətlərinə dair təlimlərdə iştiraka ehtiyac vardır. |
| **50 və daha az** | qeyri-kafi | Dərs müəyyən edilmiş tələblərə cavab vermir. |

**Müşahidə olunmuş dərs haqqında yekun rəy bölməsi:**

| Müşahidə olunan dərsin güclü tərəfləri | Təkmilləşməyə ehtiyacı olan sahələr/məsələlər |
|---|---|
| | |
| **Müşahidə olunmuş dərs haqqında yekun rəyinizi bildirin:** | |
| | |

**Açıq dərsin qiymətləndiricisi**

______________________________________________(imza)_____________

**Yekun rəy ilə tanış oldum**

________________________________________(imza)____________"__"________20

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının "14" sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).